AMEA-nın Xəbərləri (biologiya və tibb elmləri), cild 68, №3, səh. 204-210 (2013)

Azərbaycanın Qərb Bölgəsinin Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin Səhləbkimiləri *(Orchidaceae)*

A.A.Bayramova

Gəncə Dövlət Universiteti, Gəncə şəh., Azərbaycan

Azərbaycanın Qərb Bölgəsində antropogen təsirlərə məruz qalmış və Xüsusi Mühafizə olunan təbiət ərazilərində Səhləbkimilərin növ tərkibi, yayılma qanunauyğunluqları və mühafizəsinin nəzəri və praktiki əsaslar tədqiq olunmuşdur. Aşkar olunmuşdur ki, antropogen landşaflarda səhləbkimilər tək-tək, səpələnmiş halda, yalnız müəyyən refigiumlarda özünü qoruyub saxlaya bilir. Rast gəlinən növlər isə tam həyat tsiklini başa çatdıra bilmir. Göy-göl Milli parkının meşə talalarında Səhləbkimilərin əmələ gətirdiyi təbii örtük Xüsusi Mühafizə olunan Təbiət ərazilərinin rolunun nə qədər vacibliyini göstərir. Ərazidə yayılan 14 cinsə aid 27 növün (onlardan 2 növ ərazi üçün ilk dəfə göstərilir) həyat tsikli ilə yanaşı, bioekoloji xüsusiyyətləri də öyrənilmişdir.

***Acar sözlər**: flora, fəsilə, cins, növ, Orchidaceae*

GİRİŞ

Öz gözəlliyi və zənginliyi ilə dünyada məşhur olan səhləblər bitkilər aləminin əvəzolunmaz bir hissəsidir. “Səhləb” gözəllik, cazibədarlıq, sevgi rəmzidir. Tropik ölkələrdə Səhləbkimilər fəsiləsinə 1000 cinsə aid olan 25.000-30.000-ə qədər növ daxildir. Səhləblər növ müxtəlifliyinə, ölçüsünə, çəkisinə və rəng çalarlarına görə bir-birindən çox fərqlənir.

Bəzi səhləblər yeraltı, bəziləri qayalar üzərində, torpaqda və bir çoxları digər bitki və ağac üzərində inkişaf edərək epifit həyat tərzi kecirir.

Səhləblər ekoloji mühitə uygunlaşan (quru yerlər istisna olmaqla) tropik iqlim zonalarında geniş yayılmışdır. Məsələn, keçmiş SSRİ ərazisində 120 növ, Azərbaycanda 50 növ, Uzaq Şərqdə 60,Vyetnamda 200, Floridada 100, Kubada 307, Venesuelada 1055 növü var (Конспект Флоры Кавказа, 2006; Флора Азербайджана, 1952; Черепанов, 1995).

Səhləbkimilərin nümayəndələrinin sayı intensiv antropogen təsirlər nəticəsində ərazilərdə kəskin azalır. Səhləbkimilərin əksəriyyəti “Qırmızı kitaba” salınıb və onların toplanması yolverilməzdir.

MATERİAL VƏ METODLAR

Tədqiqatlar 2008-2013-cü illərdə Azərbaycanın qərb bölgəsinin xüsusi mühafizə olunan təbiət ərazilərində (Göy-göl Milli Park (GMP), Eldar şamlığı (EŞDTQ), Qarayazı (QDTQ), Korçay Dövlət Təbiət Qoruğu (KDTQ) aparılmışdır. Tədqiqat materialı Səhləbkimilər (*Orchidaceae*) olmuşdur.

Tədqiqatların aparılmasında marşurut stasionar və kameral metodlardan istifadə olunmuşdur (Гроссгейм, 1936; Гаджиев, 1971; Əsgərov, 2011; Толмачев, 1986). Eyni zamanda Botanikada istifadə olunan floristik, floristik-sistematik, areoloji, botaniki-coğrafi, fitosenoloji, statistik metodlar nəzərə alınmışdır (Лавренко, 1964; Novruzov, 2010; Novruzov və b., 2010). Marşurutlar orta dağ qurşağından başlayıb subnival və nival qurşaqlarına qədər dağ suxurları, yarğanları, çılpaq və eroziyaya uğramış suxurları və töküntüləri əhatə etmişdir

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Azərbaycan florasında növ tərkibi, yayılma qanunauyğunluqları və mühafizəsinin nəzəri və praktiki əsaslarla işlənib hazırlanması məqsədilə Azərbaycanın Qərb Bölgəsində antropogen təsirlərə məruz qalmış və Xüsusi Mühafizə olunan təbiət ərazilərində səhləbkimilər tədqiq olunmuşdur.

Xüsusi Mühafizə olunan Təbiət ərazilərində Səhləbkimilərin 14 cinsə aid olan 27 növü yayılmışdır.

Səhləbkimilər fəsiləsindən *Ophrys apifera* Huds. 1762, Fl. Angl.:340.; *Anacamptis pyramidalis* (L.) Rich.1817, Orchid. Eur. Annot.:33; *Goodyera repens* (L.) R. Br. 1813, in Ait.et Ait. f. Hort. Kew ed. 2,5:198.; *Corallorhiza trifiida* Chatel. 1760, Sp. Inaug. Corall.:8. Azərbaycanda yalnız Qərb Bölgəsində Xüsusi Mühafizə olunan təbiət ərazilərinin refigiumlarında qorunub saxlanılmışdır. *Ophrys apifera*, *Anacamptis pyramidalis* kiminövlər Göy-göl Milli Parkının meşə talalarında səhləbkimilərin əmələ gətirdiyi təbii örtük Xüsusi Mühafizə olunan Təbiət

ərazilərinin rolunu nə qədər vacibliyini göstərir (Bayramova, 2013; Əlizadə, 2011; Novruzov və b., 2010) (Şəkil 1).



Şəkil 1.Göy-göl Milli Parkında səhləb cəngəlliyi.

Tədqiqat ərazisindəki bütün səhləbkimilər kökyumrusu əmələ gətirən qısa kökümsovlu (geofit) çoxillik otlar, kriptofitlərdir**.**

Fəs. Orchidaceae* Juss.- *Səhləb

Cins*: Orchis* L.- *Səhləb*

***O.tridentata* Scop.**1772, Fl. Catn. ed. 2, 2:190.-*O.taurica* Lindl. 1835,Gen. Sp. Orchid.: 271.-Üçdiş s.

Kökyumrusu əmələ gətirən qısa kökümsovlu çoxillik otdur, kriptofit (geofit), 20-30 sm boyunda bitkidir. Çiçəkləmə V-VI. Orta dağ qurşağında, kolluqlarda, gölməçələrin və çayların kənarında daşlı yerlərdə rast gəlir. EŞDTQ, GMP, Avro-Aralıqdənizi areallıdır.

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Kür düzənliyində, Kiçik Qafqazın Şimali-cənubunda, Lənkaranda yayılır. Qafqazda Dağıstanda, Qərbi və Şərqi Zaqafqaziyada rast gəlinir.

Ümumi yayılma: Atlantika, Mərkəzi, Cənubi Avropa, Cənub-Qərbi (Türkiyə, Şimali Suriya, Şimali İrak, Şimali İran) Asiya.

***O. papilionacea* L.** 1759, Systema, ed. 10:1242.-*Vermeulenia papilionacea* (L.) A.et D. Löve, 1972, Acta Bot. Neerl.21:554.- Əmzikvarı s.

Hündürlüyü 20-30 sm-ə çatır, çiçəkləmə V-VI. Orta və yüksək dağ qurşağında, dağ ətəklərində rast gəlir. EŞDTQ, GMP. İran-Turan.

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Qobustan, Kür-Araz düzənliyi, Lənkaranda yayılır.

Qafqazda Dağıstan və Şərqi Zaqafqaziyada yayılır.

Ümumi yayılma: Cənub-Qərbi Asiya (Şimali İran).

***O.punctulata* Stev.ex Lindl.**1835, Gen. Sp. Orch. Pl.:273. - *O.sepulchralis* Boiss. et Heldr. 1854, in Boiss. Diagn. Pl. Orient.Ser. 1,13:10.-*O. schelkownikowii* Woronow, 1909, Изв.Кавк. муз. 4:266.-*O.adenocheila* Czerniak. 1924, Not. Syst.(Leningrad), 5:173.- *O. aserica* B.Baumann, H. Baumann, Lorenz et Peter, 2003, J. Eur. Orch. 35, 1:174. - Nöqtəvari s.

20-35 sm hündürlükdə çoxillik otdur, çiçəkləmə V-VI. Aşağı və orta dağ qurşağından subalp yüksəkliyinə qədər, kolluqlarda, meşədə, meşə kənarında yayılır. GMP, EŞDTQ, KDTQ. İran-Turan

Növ Krımdan təsvir olunmuşdur.

Azərbaycanda Kür-Araz düzənliyi, Bozqır yaylası, Lənkaranda yayılır.

Qafqazda Şərqi-Qərbi Zaqafqaziyada yayılır.

Ümumi yayılma: Cənub-Şərqi Avropa, Aralıq dənizi, Cənub-Qərbi Asiya (Türkiyə, Şimal-Qərbi İran, Şimali İrak).

***O.stevenii* Reichenb.**1849, Bot. Zeit. 7:892.- O.militaris subsp. steveni (Reichenb. f.) B. Baumann, H. Baumann, Lorenz et Peter, 2003,J. Eur. Orch. 35, 1:179. – Steven s.

25-30 sm hündürlükdə çoxillik otdur, çiçəkləmə V-VI. Aşağı və orta dağ qurşağında, meşədə, çay kənarında daşlı yerlərdə rast gəlir. EŞDTQ, QDTQ.Qafqaz

Növ Qafqazdan təsvir olunmuşdur.

Azərbaycanda Quba, Kür-Araz düzənliyi, Kiçik Qafqazın Şimal və Mərkəzində yayılmışdır.

Qafqazda Şərqi, Cənubi Zaqafqaziyada və Talışda yayılır.

Ümumi yayılma:Cənub-Qərbi Asiya (Türkiyə).

***O. purpurea* Huds.** 1762, Fl. Angl.:334- O. fusca Jacq. 1776, Fl. Austr.4:4, tab. 307.-*O. maxima* C. Koch, 1846, Linnaea, 19:14.-*O. caucasica* Regel, 1870, Ind. Sem. Hort. Bot. Petropol. 1868, Suppl. 1869:22 - *O.purpurea subsp. caucasica* (Regel) B. Baumann, H. Baumann, Lorenz et Peter, 2003,J. Eur. Orch. 35, 1:182. - Fır-fır s.

25-35 sm ölçüdə çoxillik otdur. çiçəkləmə V. Orta dağ qurşağında, meşə kənarında, kolluqlarda, daşlı qayalıqlı yerlərdə yayılır. EŞDTQ. Avro-Qafqaz.(R.)

Növ İngiltərədən təsvir olunmuşdur.

Azərbaycanda Quba, Samur- Dəvəçi düzənliyi, Qobustan, Kür-Araz düzənliyi, Kiçik Qafqazın Şimal və Mərkəzindən yayılmışdır.

Qafqazda Dağıstan, Şərqi və Qərbi Zaqafqaziyada yayılır.

Ümumi yayılma: Atlantika. Mərkəzi, Cənubi, Cənub-Şərqi Avropa, Aralıqdənizi,Cənub-Qərbi Asiya (Türkiyə).

***O.mascula* L.**1755, Fl. Suec. ed. 2:310.- *O.mario var.mascula* L.1753, Sp.Pl. 2:941.- Erkək s.

20-40 sm ölçüdə çoxillik otdur, çiçəkləmə V-VI. Aşağı və orta dağ qurşağından subalp yüksəkliyinə qədər, meşədə kolluqlarda yayaılır. EŞDTQ, KDTQ, QDTQ. Avro-Qafqaz

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Şərq, Qərb, Kiçik Qafqazın Şimalı, Mərkəzi, Naxçıvan və Lənkərandan yayılmışdır.



Şəkil 2. Orchi *mascula* L.

Qafqazda Cənubi, Şərqi və Qərbi Zaqafqaziyada yayılir.

Ümumi yayılma:Avropa, Aralıqdənizi, Şimali, Cənub-Qərbi Asiya

***O.palustris* Jacq.**1787, Collect. Bot. 1:75 - *O.elegans* Heuff. 1835, Flora (Reichenb.), 18:250.- *O.pseudolaxiflora* Czerniak. 1941, Фл. Узбек.1:525, 545, табл. 77, 2.-*O.laxiflora* auct. non Lam.: Гроссг.1940. Фл. Кавк. изд .2, 2 : 240. - Bataqlıq s.

25-35 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VI. Orta dağ qurşağında, bataqlıqlarda, gölməçələrdə, çay kənarında yayılır. QDTQ. Avro-Aralıqdənizi

Növ Avstriyadan təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Böyük Qafqazın Şimalı, Kür-Araz düzənliyi, Kiçik Qafqazın Şimalı, Naxçıvan və Lənkaranda yayılır.

Qafqazda Şərqi, Cənubi Zaqafqaziya və Talışda yayılır.

Ümumi yayılma:Atlantika, Mərkəzi,Cənubi Avropa,Cənub-Qərbi , Orta Asiya

Cins*: Ophrys* L. - *Quşsəhləbi*

***O.apifera* Huds.**1762, Fl. Angl.:340.- İyli q.10-20 sm hündürlükdə çoxillik otdur, çiçəkləmə V. Aşağı və orta dağ qurşağında quru yamaclarda yayılır. KDTQ, EŞDTQ,QDTQ. Avro-Qafqaz.(R.)

Növ İngiltərədən təsvir olunmuşdur. Azərbaycanda Lənkaranda yayılması barədə məlumatlar vardır (Флора Азербайджана, 1952) Azərbaycanın Qərb Bölgəsinin Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri üçün ilk dəfə bizim tərəfimizdən göstərilir.

Qafqazda Qərbi, Şərqi və Cənubi Zaqafqaziyada, Talışda yayılır.

Ümumi yayılma: Atlantika. Mərkəzi, Cənubi, Cənub-Şərqi Avropa, Aralıqdənizi ,Cənub-Qərbi Asiya (Suriya, Türkiyə, Şimali İran, Şimali İrak).

Cins*: Traunsteinera* Reichenb. - Traunsteinera

***T. sphaerica* (Bieb.) Schlechter**, 1928, Monogr.Ic. Orch. Eur.1,7-8:227.-*Orchis sphaerica* Bieb.1808, Fl. Taur.-Cauc. 2:362.-*O. globosa var. sphaerica* (Bieb.) Schmalh. 1897, Фл. Ср. Южн. Рос.2:456. - Kürəvi t.

Yüksək dağ qurşağında subalp və alp çəmənliyində yayılır. GMP. Qafqaz. (Pl.)

Növ Gürcüstadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Qərbi, Kiçik Qafqazın Şimali və Mərkəzində yayılır.

Qafqazda Dağıstan, Qərbi, Şərqi və Cənubi Zaqafqaziyada yayılır.

Ümumi yayılma: Cənub-Qərbi Asiya (Şimali-Şərqi Türkiyə).

Cins*: Dactylorhiza* Neck.ex Nevski-Daktylorhiza

***D. iberica* (Bieb. ex Willd.) Soo**1962, Nom. Nov.Gen.Dactylorhiza:3-*Orchis iberica* Bieb. ex Willd.1805, Sp. Pl. 4: 25 – İberiya d.

8-25 sm ölçədə çoxillik odur, çiçəkləmə V-VI. Aşağı və orta dağ qurşağında rütubətli yerlərdrast gəlir. KDTQ, QDTQ, EŞDTQ.Qafqaz

Növ Şərqi Qafqazdan təsvir olunmuşdur.

Azərbaycanda Qobustan, Kiçik Qafqazın Cənubi və Şimalında yayılır.

Qafqazda Şərqi və Cənubi Zaqafqaziyada yayılır.

Ümumi yayılma:Cənub-Şərqi Avropa (Bolqariya, Krım), Aralıqdənizi,Cənub-Qərbi Asiya (Türkiyə, İran, İrak, Suriya, Livan).

***D. flavescens*(C. Koch) Holub**, 1976, Folia Geobot. Phytotax.(Praha),11,1:83.- *Orchis flavescens* C. Koch, 1849, Linnaea, 22:281.- *O.tenuifolia* C.Koch,1849, 1. c.:281. - Sarımtıl d.

8-25 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VI. Aşağı dağ qurşağından subalp yüksəkliyinə qədər, rütubətli yerlərdə, meşə və kolluqlarda rast gəlir. KDTQ, EŞDTQ,QDTQ. İran-Turan

Növ Zaqafqaziyadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Qərbi, Şərqi, Kiçik Qafqaın Mərkəzi, Cənubu, Naxçıvan MRvə Lənkaranda yayılır.

Qafqazda hər yerdə rast gəlinir.

Ümumi yayılma:Cənub-Qərbi (Şərqi Türkiyə, Şimali-Qərbi İran, Şimali İrak), Orta (Türkmənistan) Asiya.

***D.urvilleana*(Steud.) H.Baumann et Kuenkele**, 1981, Mitt. Bl. Arbeitskr. Heim. Orch. Badem-Wurth. 13, 2: 240.- *Orchis urvilleana* Steud.1841, Nomencl. Bot. ed. 2,2 : 252-*O.pontica* H.Fleischm. et Hand.- Mazz.1909, Ann. Naturh. Mus. (Wien) 23,1-2:208.-*D. amblyoloba* Nevski, 1935, Фл. СССР, 4:707.-Urveliand.

8-25 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VI. Orta və yüksək dağ qurşağında meşə və kolluqlarda, rütubətli çəmənliklərində rast gılir. GMP, EŞDTQ. Qafqaz

Növ Abxazidən təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Şərqi, Qərbi, Kiçik Qafqazın Mərkəzi və Şimalında yayılır.

QafqazdaŞərqi, Qərbi, Cənubi Zaqafqaziyada rast gəlinir.

Ümumi yayılma:Cənub-Qərbi Asiya (Şimali-Şərqi Türkiyə, Şimali-Qərbi İran).

***D.euxina* (Nevski) Czer**.1981(17 Feb.),Сосуд. раст. СССР:308; H.Baumann et Kuenkele, 1981, Mitt.Bl. Arbeitskr. Heim. Orch. Baden-Wurth. 13, 2:235. –*Orchis euxina* Nevski, 1935, Фл. СССР, 4:709.-*O. monticola subsp. caucasica* Klinge, 1898, Dactylorch. Monogr. Prodr.(seors.expr.):35-*O.caucasica* (Klinge) Medw. 1919, Тр.Тифл. бот.сада, 18,2:476, non Regel, 1869.- Qılıncyarpaq d.

15-30 sm hündürlükdə çoxillik otdur, çiçəkləmə V-VI. Kiçik Qafqazın şimalında, alp qurşağında rütubətli alp çəmənliyində rast gəlir. GMP.Qafqaz

Növ Qafqazdan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Şimali-Qərbi,Şərqi, Kiçik Qafqazın Şimalı və Mərkəzi.

Qafqazda Dağıstan Qərbi və Şərqi Zaqafqaziyada rast gəlinir.

Ümumi yayılma: Cənub-Qərbi Asiya (Şimali-Şərqi Türkiyə, Şimali-Qərbi İran).

***D.salina* (Turcz ex Lindl.)** Soo, 1962, Nom.Nov.Gen.Dactylorhiza:4-*Orchis salina* Turcz. ex Lindl.1835, Gen. Orch. Pl.:259.- *O.sanasunitensis* auct. Caucas. non H.Fleischm.: Невский, 1935, Фл.СССР, 4:715; Гроссг. 1940, Фл. Кавк., 2, 2:244; он же, 1949, Опред. раст. Кавк.: 645 Фл. Азерб. 2:254, 255; Галушко, 1978, Фл. Сев.Кавк.1:183.- Şoran d.

15-30 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VI. Kiçik Qafqazın, yüksək dağ qurşağında, çəmənliklərdə yayılır. GMP.Ümumqədimaralıqdənizi.

Növ Baykaldan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Qərbi, Kiçik Qafqazın Şimali və Qərbi, Naxçıvanda yayilir.

Qafqazda Dağıstan, Şərqi və Qərbi Zaqafqaziyada rast gəlinir.

Ümumi yayılma:Şimali (Cənub-Şərqi Sibir), Orta (Tacikistan, Qırğızıstan, Qazaxıstan) Mərkəzi (Monqolustan, Şimali-Şərqi Çin) Asiya.

Cins*: Anacamptis Rich. - Bağ səhləbi*

A. pyramidalis (L.)Rich.1817, Orchid. Eur. Annot.:33- *Orchis pyramidalis* L. 1753, Sp.Pl.2:940 - Piramidal b.

25-35 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V. Aşağıdan orta dağ qurşağına qədər, dağ yamaclarında, kolluqların kənarında yayılır. KDTQ, QDTQ, EŞDTQ. Avro-Aralıqdənizi

Növ İngiltərədən təsvir olunmuşdur.

Azərbaycanda Quba və Qusar rayonları arasında rast gəlir. Azərbaycanın Qərb Bölgəsinin Xüsusi Mühafizə Olunan Təbiət Əraziləri üçün ilk dəfə göstərilir.

Qafqazda Dağıstanda və Böyük Qafqazın Şərqində yayılır.

Ümumi yayılma:Avropa, Cənub-Qərbi Asiya (Türkiyə, Şimali İrak, Şimali Suriya, Şimali İran).

Cins*: Coeloglossum* Hartm. *–Boş ləçək.*

***C.viride* (L.) C.Hartm**.1820, Handb. Scand. Fl.:329.-*Satyrium viride* L.1753 Sp.Pl.: 944.- Yaşıl b.

15-25 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VI. Kiçik Qafqazın şimalında, subalp və alp qurşağında çəmənliklərdə, dağ ətəklərində, yüksək dağ meşələrində rast gəlir. GMP. Holarktik

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Qərbi və Şərqi, Kiçik Qafqazın Mərkəzi və Şimalında yayılır.

Qafqazda Dağıstan, Qərbi və Şərqi Zaqafqaziyada yayılır.

Ümumi yayılma:Avropa, Asiya, Şimali Amerika.

Cins*: Gymnadenia* R.Br.*- Dəmir səhləb*

***G. conopsea*(L.) R. Br.** 1813, in Ait. et Ait.f. Hort. Kew, ed. 2,5:191- *Orchis conopsea* L.1753, Sp.Pl.: 942.– Çılpaq d.

20-40 sm hündürlükdə çoxillik otdur, cicəkləmə V-VIII. Yüksək dağ qurşağında alp və subalp çəmənliyində rast gəlir. GMP. Polearktik.

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın Qərbi, Şərqi, Kiçik Qafqazın Şimali, Mərkəzi, Cənubu və Lənkaranda yayılır.

Qafqazda hər yerdə.

Ümumi yayılma: Avropa, Asiya.

Cins*: Cephalanthera Rich. – Tozbaş səhləb*

***C.rubra* (L.) Rich**.1817, Orchid. Eur. Annot.:38- *Serapias rubra* L.1767, Syst. Ed.12,2:594. – Qırmızı t.

20-30 sm hündürlükdə çoxillik otdur, cicəkləmə VI. Orta dağ qurşağında meşədə, kolluqlarda,daşlı dağ yamaclarında rast gəlir. GMP, EŞDTQ.Panboreal

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Böyük Qafqazın Şərqi, Qərbi, Qobustan, Kiçik Qafqazın Şimali, Mərkəzi, Cənubu və Lənkəranda yayılır.

Qafqazda Qərbi, Cənubi və Şərqi Zaqafqaziyada yayılır.

Ümumi yayılma: Atlantika. Orta, Mərkəzi,Cənubi, Cənub-Şərqi, Şərqi Avropa, Şimali(Sibir), Cənub-Qərbi (Şimai İrak, Şimali İran), Orta (Şimal-Şərqi Qazaxıstan) Mərkəzi (Qərbi Manqolustan, Şimali Çin) Asiya.

***C. longifolia* (L.) Fritsch**, 1888, Österr. Bot. Zeitschr. 38:81.-*Serapias helleborine var. langifolia* L.1753, Sp.Pl. 2:950.- *S . lonchophyllum* L. f.1781, Suppl.:404.- *Cephalanthera ensifolia* Rich. 1817, Orchid. Eur. Annot.:38. – Uzunyarpaq t.

20-40 sm hündürlükdə çoxillik otdur, cicəkləmə VI. Aşağı və orta dağ qurşağında kserofit meşələrdə və kolluqlarda yayılır. KDTQ, QDTQ, EŞDTQ. Panboreal

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Böyük Qafqazın şərqi, qərbi, Kiçik Qafqazın Şimalı, Mərkəzi, Cənubu və Lənkəranda yayılır.

Qafqazda Cənubi Zaqafqaziyadan başqa hər yerdə rast gəlir.

Ümumi yayılma:Atlantika. Mərkəzi,Cənubi, Cənub-Şərqi Avropa, Cənub-Qərbi, Mərkəzi Asiya.

***C.damasonium* (Mill.) Druce**, 1906, Ann.Scott. Nat. Hist. 60:225.-*Serapias damasonium* Mill.1768, Gard. Dict. ed. 8, N2.-*S.grandiflora* L.1767, Systema, ed.12,2:594, nom. illeg. Superfl.- *C.grandiflora* (L.)S.F. Gray, 1821, Nat. Arr.Brit. Pl. 2:210. –Damason t.

20-40 sm hündürlükdə çoxillik otdur, hemikriptofitdir, cicəkləmə V-VI. Orta dağ qurşağına qədər, kserofit meşələrdə və kolluqlarda rast gəlir. QDTQ, EŞDTQ. Avro-Qafqaz

Növ İngiltərədən təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Böyük Qafqazın Qərbi, Kiçik Qafqazın şimalı vəmərkəzində yayılır.

Qafqazda Qərbi və Şərqi Zaqafqaziyada.

Ümumi yayılma:Atlantika. Mərkəzi,Cənubi, Cənub-Şərqi Avropa, Cənub-Qərbi (Türkiyə, İran) Asiya.

Cins: *Epipactis* Zinn – *Mürgəkotu*

***E.helleborine*(L.) Crantz**, 1769, Stirp. Austr. ed. 2, 2:467.- *Serapias helleborine* L.1753, Sp.Pl.:949, p.p. quoad var. latifolia L.-*S.latifolia* (L.)L.1767, Syst. Nat. Ed. 12,2:593. –*Epipactis latifolia* (L.) All.1785, Auct. Fl.Pedem.2: 151, nom. rej- İşıqsevən m.

Qısakökümsovlu çoxillik otdur, kriptofit, 30-60 sm, çiçəkləmə VII-VIII. Aşağı və orta dağ qurşağında meşədə, kolluqların kənarında yayılır. EŞDTQ, KDTQ, QDTQ.Holarktik.

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Samur-Dəvəçi düzənliyi, Böyük Qafqazın şərqi, qərbi, Kiçik Qafqazda hər yerdə və Lənkəranda yayılır.

Qafqazda hər yerdə rast gəlir.

Ümumi yayılma: Avropa, Aralıqdənizi, Şimali, Cənub-Qərbi (Türkiyə,Suriya, İran,İrak, Əfqanıstan, Pakistan) Orta (Qazaxıstan), Mərkəzi (Şimal-Qərbi Çin, Şimal-Qərbi Monqolustan) Asiya, Şimali Amerika.

***E.palustris*(L.) Crantz**, 1769,Stirp. Austr.ed. 2,2:462.- *Serapias helleborinevar.palustris* L.1753, Sp.Pl. 2:950.-*S. palustris*(L.) Mill. 1768, Gard. Dict.ed.8, N 3. – Batdaxlı m.

Sulu və quru mühitdə yaşayan 40-100 smboyunda, çoxillik otdur, çiçəkləmə VI-VII. Orta dağ qurşağına qədər, rütubətli yerlərdə, kölgəli meşələrdə və kolluqlardarast gəlir. KDTQ, QDTQ.Panboreal

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Quba, Kür düzənliyi və Kiçik Qafqazın Şimalında yayılır.

Qafqazda Şərqi, Qərbi Zaqafqaziyada.

Ümumi yayılma:Atlantika. Şimali, Mərkəzi,Cənubi, Cənub-Şərqi, Şərqi Avropa, Şimali (Sibir), Cənub-Qərbi(Şimai İrak, Şimali İran), Orta (Şimal-Şərqi Qazaxıstan)Mərkəzi (Qərbi Manqolustan, Şimali Çin) Asiya.

Cins*:* *Epipogium* J.G.Gmel. ex Borkh. *(=Epipogon* Patze et al.) – Saqqalüstü

***E.aphyllum* (F.W.Schmidt) Sw**.1814, Summa Veg. Scand.:32.- *Satyrium epipogium* L. 1753, Sp. Pl. 2:945.- *Orchis aphylla* F.W. Schmidt, 1791, in Mayer, Phys. Aufs.: 240, non Forsk.1775.- *Epipogium gmelinii* Rich. 1817, Orchid. Eur. Annot.:36– Yarpaqsız s.

Qısakökümsovlu çoxillik otdur, kriptofit (saprofit), 15-25 sm, çiçəkləmə VII-VIII. Aşağı və orta dağ qurşağında kölgəli, palıd meşələrinin kənarında rast gəlir. KDTQ, QDTQ, EŞDTQ. Polearktik.

Növ Sibirdən təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın şərqi, qərbi, Kiçik Qafqazın şimalı və Lənkəranda yayılır.

Qafqazda Şərqi, Qərbi Zaqafqaziya və Talışda rast gəlir.

Ümumi yayılma: Avropa, Asiya.

Cins: *Listera* R.Br. – Gizli çiçək

***L.ovata* (L.) R. Br**. 1813, in Ait.et Ait.(f.) Hort. Kew ed. 2,5:202.-*Ophrys ovata* L.1753, Sp. Pl. 2:946.– Oval g.

Qısakökümsovlu çoxillik otdur, hemikriptofit , 20-30 sm, çiçəkləmə V. Orta dağ qurşağına qədər, meşədə, rütubətli yerlərdə, kölgəli meşələrdə, kolluqlarda, KDTQ, QDTQ. Plyuregional.

Növ Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın qərbi, şimalı, Kiçik Qafqazın mərkəzi, və Lənkəranda yayılır.

Qafqazda Dağıstan, Şərqi, Qərbi Zaqafqaziya və Talışda rast gəlir.

Ümumi yayılma:Avropa,Şimali, Cənub-Qərbi(Türkiyə), Şərqi Asiya, Şimali Amerika.

Cins: *Neottia* Guett. – Yuvacıq otu

***N.nidus-avis* (L.) Rich**. 1817, Orch. Eur. Annot.:37.- *Ophrys nidusavis* L.1753, Sp.Pl.:945. – Həqiqi y.

Qısakökümsovlu, 10-25 sm boyunda çoxillik hemikriptofit (saprofit)otdur, cicəkləmə V-Vİ. Aşağı və orta dağ qurşağında kölgəli meşələrdə, dağ ətəklərində yayılır. KDTQ, QDTQ. Panboreal.

Növ İsveçrə, Almaniya və Fransadan təsvir olunmuşdur.

Azərbaycanda Böyük Qafqazın şərqi, qərbi, Kiçik Qafqazın şimalı, cənubu və Lənkəranda yayılır.

Qafqazda Dağıstan, Şərqi, Qərbi Zaqafqaziya və Talışda rast gəlir.

Ümumi yayılma: Avropa, Aralıqdənizi, Şimali və Cənub-Qərbi Asiya (Türkiyə, Şimali və Qərbi İran) .

Cins: *Goodyera* R. Br. – Qudayera

***G.repens*(L.) R. Br**. 1813, in Ait.et Ait. f. Hort. Kew ed. 2,5:198.- *Satyrium repens* L.1753, Sp. Pl. 2:945. – Sürünən q.

Həmişəyaşıl boyu 8-15 sm olan, çoxillik, hemikriptofit, otdur.ÇçəkləməVI-VII. Orta və yüksək dağ qurşağında şam meşələrində rast gəlir. GMP, EŞDTQ.Holarktik.

Növ İsveçrə, İngiltərə və Sibirdən təsvir olunmuşdur.

Azərbaycanda Kiçik Qafqazın şimalında yayılır. Azərbaycanın Qərb Bölgəsinin Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərində tək-tək rast gəlir.

Qafqazda Dağıstan, Şərqi, Qərbi və Cənubi Zaqafqaziyada yayılmışdır.

Ümumi yayılma:Avropa, Şimali və Cənub-Qərbi (Türkiyə, Şimali və Qərbi İran) Asiya, Şimali Amerika.

Cins: *Corallorhiza* Chatel. – Mərcan gülü

***C.trifiida*Chatel.**1760, Sp. Inaug.Corall.:8.- *Ophrys corallorhiza* L. 1753, Sp. Pl. 2:945. – *Corallorhiza innata* R. Br.1813, in Ait et Ait. fil. Hort. Kew ed. 2,5:208– Uçyarıq m.

Qısakökümsovlu çoxillik otdur, boyu 10-20 sm-dir, çiçəkləmə VII. Orta və yüksək dağ qurşağında, kölgəli meşələrdə kolluqlarda yayılır. GMP, EŞDTQ. Holarktik.

Növ Şimali Avropadan təsvir olunmuşdur.

Azərbaycanda Kiçik Qafqazın şimalında və Qərb Bölgəsinin Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərində yayılır.

Qafqazda Dağıstan, Şərqi Zaqafqaziyada rast gəlinir.

Ümumi yayılma: Avrasiya, Şimali Amerika.

Aşkar olunmuşdur ki,antropogen landşaflarda səhləbkimilər tək-tək, səpələnmiş halda, yalnız müəyyən refigiumlarda özünü qoruyub saxlaya bilmişdir. Rast gəlinən növlər isə tam həyat tisklini başa çatdıra bilməmişlər.

ƏDƏBİYYAT

Bayramova A.A. (2013) Azərbaycanın qərb bölgəsinin xüsusi mühafizə olunan təbiət ərazilərinin flora biomüxtəlifliyi. Bakı. Elm: 327 s.

Bayramova A.A. (2010) Korçay Dövlət Təbiət Qoruğunun bitkiliyi. *AMEA GREM Xəbərlər məcmuəsi* (Gəncə), **39**: 29-33.

Əlizadə V.M. (2011) Azərbaycanın bioloji müxtəlifliyi, öyrənilməsi, qorunması və zənginləşdirilməsi. *AMEA Botanika İnstitunun Elmi əsələri,* **XXXI:** 3-16.

Əsgərov A.M. (2011) Azərbaycan florasının konspekti. Bakı, Elm: 202.

Novruzov V.S., İsmayılova Z.M., Bayramova A.A. (2010) Azərbaycanın qərb bölgəsində xüsusi mühafizə olunan təbiət ərazilərinin (Göy-göl, Eldar şamlığı, Qarayazı) flora biomüxtəlifliyi və genofondun mühafizəsi. *Azərbaycan Botaniklər Cəmiyyətinin Elmi əsərləri,* **I**: 89-94.

Novruzov V.S. (2010) Fitosenologiyanın (geobotanika) əsasları. Bakı, Elm: 306 s.

Гаджиев В.Д. (1971) Анализ флоры высокогорий Малого Кавказа. Баку: 169 с.

Гроссгейм А.А. (1936) Анализ флоры Кавказа. *Тр. БИН АзФАН СССР*, **1:** 275 с.

Конспект флоры Кавказа. (2006) СПб, **II**: 467 с.

Лавренко Е.М. (1964) Ботанико-географические доминанты и ареалы растений. В кн.: *Физико-географический атлас мира.* М.: 288 с.

Толмачев А.И. (1986) Методы сравнительной флористики и проблемы флорогенеза. Новосибирск: 195 с.

Флора Азербайджана (1952) Баку. **II**: 317с.

Черепанов С.К. (1995) Сосудистые растения России и сопредельных государств. СПб: 995 с.

Эфендиева Ш. (1955) Растительность района озера Гей-гель на Малом Кавказе. *Автореф. канд. дисс.,* Баку: 20с.

Орхидеи (*Orchidaceae*) Особо Охраняемых Территорий Западных Регионов Азербайджана

Байрамова А.А.

Гянджинский государственный университет

В статье даются сведения о видовом составе, распространении, биоэкологических особенностях представителей семейства *Orchidaceae*. Установлено, что на особо охраняемых территориях Западных регионов Азербайджана встречаются 27 видов, 14 родов из семейства *Orchidaceae*. Проведен систематический, ареалогический и экологобиологический анализ флоры.

Ключевые слова: *флора, семейство, род , вид, Orchidaceae*

Orchids of Specially Protected Areas in the West of Azerbaijan

A.A. Bayramova

Ganja State University

Species composition and the ecological structures of the Orchids spread in the specially protected areas in the West of Azerbaijan have been investigated. 27 species, 14 genera of the Orchidaceae family were detected in Azerbaijan. Systematic, areological and ecobiological analyses of the flora were conducted.

Key words: *flora, family, genus, species, Orchidaceae*